

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 49 (20.950)

15 mart 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də İtaliya Respublikasının Friuli-Venetsiya-Culiya regionunun Regional Şurasının prezidenti xanım Debora Serakkianinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan ilə İtaliya arasında yaxşı əməkdaşlığın mövcud olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin İtaliyanın müxtəlif regionları ilə də yaxın əlaqələr qurmaqda maraqlı olduğunu dedi. İqtisadi sahədə İtaliyanın ölkəmizin əsas tərəfdaşlarından biri olduğunu vurğulayan Prezident İlham Əliyev digər sahələrdə də əlaqələrimizin genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğunu qeyd etdi.

İtaliya Respublikasının Friuli-Venetsiya-Culiya regionunun Regional Şurasının prezidenti xanım Debora Serakkiani təmsil etdiyi regionun Azərbaycan ilə ticarət əlaqələrinin genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırdı.

Görüşdə əlaqələrimizin genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Naxçıvan Muxtar Respublikasında “Arpaçay-2” Su Elektrik Stansiyasının tikintisinin maliyyələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Arpaçay-2” Su Elektrik Stansiyasının tikintisini başa çatdırmaq məqsədi ilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 4,0 (dörd) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 14 mart 2014-cü il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Martın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikası xarici işlər nazirinin müavini, Xəzər məsələləri üzrə xüsusi nümayəndə İbrahim Rəhimpurun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Səmimi görüşə görə minnətdarlığını bildirən İbrahim Rəhimpur demişdir ki, ötən dövrlərdə hər iki dövlət arasındakı rəsmi səfərlər mehriban qonşuluq prinsiplərinə əsaslanan əlaqələrin inkişafında vacib amil olmuşdur. İran İslam Respublikası Azərbaycanla əlaqələrin inkişafına xüsusi önəm verir. Bu əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikası mühüm əhəmiyyət daşıyır.

Qonaq İranın yaxın vilayətləri ilə Naxçıvan Muxtar Respublikası arasında müxtəlif sahələrdə əlaqələrin inkişafı üçün real imkanların olduğunu vurğulamış, Ali Məclis Sədrini İran İslam Respublikasına səfərə dəvət etmişdir.



İran İslam Respublikasının xarici işlər nazirinin müavinini Naxçıvanda görməkdən məmnunluğunu ifadə edən Ali Məclisin Sədri qeyd etmişdir ki, ölkələrimiz arasında həm siyasi, həm də iqtisadi sahədə əməkdaşlıq getdikcə genişlənir. Bu gün dövlətlərarası münasibətlərimiz parlamentlərarası dostluq qrupu çərçivəsində də uğurla inkişaf etdirilir. Qeyd olunmuşdur ki, hazırda Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın qonşu vilayətləri arasında səmərəli əməkdaşlıq mövcuddur. Kənd təsərrüfatı, enerji, təhsil və digər sahələrdə əlaqələr uğurla inkişaf etdirilir.

Ali Məclisin Sədri İbrahim Rəhimpurun Naxçıvana səfərinin mühüm əhəmiyyət daşıdığını bildirmiş, münasibətlərin bundan sonra da dostluq müstəvisində inkişaf edəcəyinə inamını ifadə etmişdir.

Görüşdə qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Məhəmmədtağı Məhəmmədəli görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyənin Azərbaycandakı səfiri ilə görüşmüşdür



Martın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İsmail Alper Coşkunla görüşmüşdür.

Ali Məclisin Sədri qonağı salamlayaraq demişdir ki, bu gün Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələri davamlı inkişaf tempinə malikdir. Qardaş ölkələrimiz arasındakı tarixi zəminə əsaslanan münasibətlər Naxçıvan Muxtar Respublikası ilə qurulan səmərəli əməkdaşlıqda da özünü göstərir, müxtəlif istiqamətlərdə layihələr reallaşdırılır.

Ali Məclisin Sədri Türkiyənin Naxçıvandakı Baş Konsulluğu tərəfindən muxtar respublikada mühüm tədbirlərin həyata keçirildiyini diqqətə çatdırmış, ikitərəfli əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğulamışdır.

Səmimi görüşə görə minnətdarlıq edən İsmail Alper Coşkun demişdir ki, bu gün dost və qardaş ölkə olan Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişafı böyük məmnunluq doğurur. Hər iki qardaş ölkə arasındakı münasibətlərin getdikcə daha da genişləndirildiyini bildirən səfir bu əlaqələrdə Naxçıvan Muxtar Respublikasının əhəmiyyətli yeri olduğunu qeyd etmişdir.

Görüşdə əlaqələrin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Əli Rza Akıncı görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## İranın nümayəndə heyəti muxtar respublikanın elm, təhsil, mədəniyyət müəssisələri və Naxçıvanın gəzməli, görməli yerləri ilə tanış olub

İran İslam Respublikasının xarici işlər nazirinin müavini, Xəzər məsələləri üzrə xüsusi nümayəndə İbrahim Rəhimpurun başçılıq etdiyi nümayəndə heyəti Naxçıvana səfəri çərçivəsində muxtar respublikanın bir sıra elm, təhsil, mədəniyyət müəssisələri və Naxçıvanın gəzməli, görməli yerləri, tarixi abidələri ilə tanış olub.

Nümayəndə heyəti əvvəlcə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində olub. Burada bölmənin yaranma tarixi, elmi-tədqiqat institutlarında görülən işlər, Naxçıvanın tarixinin öyrənilməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışılıb.

Sonra iranlı qonaqlar Naxçıvan Dövlət Universitetinə gələrək bu təhsil ocağının Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində olublar. Burada onlara Tərcümə-Tədris Mərkəzinin fəaliyyəti haqqında məlumat verilib, müasir texnologiyalarla tədris aparılan auditoriyaların texniki imkanları nümayiş etdirilib.



Muxtar respublikanın qonaqları səfər çərçivəsində Naxçıvan Dövlət Xalça Muzeyində də olublar. Şərq memarlığının incilərindən olan Möminə xatın türbəsi ilə tanışlıq qonaqlarda xoş təəssüratlar yaradıb.

Qonaqların ziyarət etdiyi növbəti ünvan “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyi idi.

Sonra qonaqlar Naxçıvan Biznes Mərkəzi və Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olublar.

## Beynəlxalq İstehlakçılar Günü qeyd edilib

*Dünən Naxçıvan Biznes Mərkəzində 15 mart – Beynəlxalq İstehlakçılar Günü münasibətilə tədbir keçirilmişdir. Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyi və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilmiş tədbiri giriş sözü ilə İqtisadi İnkişaf Nazirliyinin Antiinhisar siyasəti və istehlakçıların hüquqlarının müdafiəsi şöbəsinin müdiri Namiq Əhmədov açaraq çıxış etmişdir.*

Bildirilmişdir ki, istehlakçıların tələbatının keyfiyyətli məhsullarla ödənilməsi üçün süni qiymət artımının qarşısının alınması istiqamətində muxtar respublikanın şəhər və qəsəbələrində mütəmadi olaraq aparılan monitorinqlər zamanı satışı həyata keçirilən məhsulların keyfiyyətinə nəzarət olunur, ərzaq və qeyri-ərzaq məhsullarının baha qiymətə satışının qarşısı alınır. Eyni zamanda Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyi müvafiq qurumların əməkdaşları ilə birlikdə daxili bazarda idxal məhsulların keyfiyyətinə nəzarətin gücləndirilməsi, istehsal prosesi zamanı aşkar edilən nöqsanların aradan qaldırılması məqsədilə müxtəlif tədbirlər həyata keçirir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin şöbə müdiri Rauf Rüstəmovun və “İstehlak Malları Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Səbuhi Seyidovun çıxışları olmuşdur.

**Xəbərlər şöbəsi**

***RSFSR ilə Türkiyə arasında “Dostluq və qardaşlıq haqqında” bağlanan beynəlxalq Moskva müqaviləsinin imzalanmasından 93 il keçir. Bu müqavilənin imzalanmasının çox böyük tarixi və siyasi əhəmiyyəti vardır. Hər şeydən əvvəl, bu müqavilə Türkiyə ilə Rusiya arasında mövcud olan problemlərin həlli üçün hüquqi-siyasi zəmin yaratmışdır. Türkiyə işğal rejimini ləğv etməklə, Rusiya isə yeni rejimi tanımamaq siyasətinə son qoymaqla təbii müttəfiqə çevrildilər. Bu müqavilənin Azərbaycan üçün ən mühüm əhəmiyyəti qismən də olsa, Azərbaycanın ərazi bütövlüyünü qorumaq və Naxçıvanın ərazi mənsubiyyəti məsələsini birdəfəlik həll etməsidir.***

*Moskva müqaviləsi – 93*

# Naxçıvanın muxtariyyət statusunu rəsmiləşdirən beynəlxalq müqavilə

Keçən əsrin 20-ci illərində Azərbaycanda, eləcə də Naxçıvan diyarında baş verən hadisələr çox mürəkkəb, ziddiyyətli və çətin olmuşdur. Azərbaycanın düşdüyü daxili, qarşılaşdığı beynəlxalq vəziyyət elə ağır idi ki, bir sıra hallarda Naxçıvana lazımi səviyyədə kömək göstərə bilmirdi. Bundan istifadə edən erməni daşnakları Naxçıvan diyarına sahib olmaq üçün bütün vasitələrdən istifadə edirdilər. Yaranmış vəziyyətdən istifadə edən erməni qaniçənləri siyasi və hərbi yolla Naxçıvanı ələ keçirmək uğrunda mübarizəyə başlamışdılar. İri kapitalist dövlətlərinin himayəsindən, yardım və dəstəyindən istifadə edən erməni cəlladları Naxçıvan diyarına hərbi basqınlar edir, qırğınlar törədir, şəhər və kəndləri dağıdır, ağlasığmaz vəhşiliklər törədir, lakin yerli əhalinin inadlı mübarizəsi, qəhrəmanlığı sayəsində onlar öz məkrli niyyətlərinə nail ola bilmirdilər. Bununla belə, 1918-1920-ci illərdə erməni daşnaklarının hərbi basqınları nəticəsində Naxçıvan diyarında faciəli hadisələr baş vermişdi. Bu hadisələrə iri kapitalist dövlətlərinin müdaxiləsi, ikili siyasət yeritmələri, qonşu dövlətlərin müəyyən münasibəti Naxçıvan məsələsini beynəlxalq müstəviyə çıxarmışdı. Nəticədə, bu problem təkcə ölkə daxilində deyil, həm də qonşu ölkələrdə və beynəlxalq təşkilatlarda müzakirə edilmişdi. Naxçıvan diyarının gələcək tarixi taleyində, onun Azərbaycanın tərkibində muxtariyyət statusunda qalmasında keçən əsrin 20-ci illərində bağlanan müqavilələrin böyük rolu olmuşdur.

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra da daşnak silahlı qüvvələrinin təcavüzkar hərəkətləri nəticəsində Naxçıvan diyarında gərginlik hələ də davam edirdi. RSFSR hökumətinin daşnak hökuməti ilə danışıqlar vasitəsilə münaqişəni həll etmək cəhdi baş tutmamışdır. 1920-ci ilin iyulunda Naxçıvan, Culfa və Ordubad əhalisi N.Nərimanova, Q.Orconikidzeyə məktubla müraciət etmişdir. Məktubda deyilirdi: “Yerli əhali öz qüvvəsi ilə daşnaklardan müdafiə olunur. Qızıl ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycanla birləşdirməyi təmin etməyi təvəqqe edirik”.

XI ordunun köməyi ilə 1920-ci il iyulun 28-də Naxçıvan diyarında Sovet hakimiyyəti qurulmuş və Naxçıvan SSR elan edilmiş, respublikanın ali hakimiyyət orqanı – Naxçıvan İnqilab Komitəsi yaradılmışdır. Avqustun 10-da Naxçıvan İnqilab Komitəsi Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova məktub göndərmişdir. Məktubda deyilirdi: “Naxçıvan camaatının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi hesab etmişdir”.

Rusiya rəhbərlərinə gəldikdə isə onlar Türkiyə ilə diplomatik münasibətlər yaratmaq istəsələr də, Ermənistandan Türkiyəyə qarşı bir vasitə kimi də istifadə etməyə çalışırdılar. Ermənistan, Azərbaycan və Türkiyənin qarşılıqlı münasibətləri məsələlərinin həllində İ.Stalin Rusiyanın mənafelərindən çıxış edərək həmişə Ermənistanın mövqeyini müdafiə edirdi. O deyirdi: “Əgər bilmək istəyirlərsə ki, Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, sovet hökuməti olanda vermək olar”. İ.Stalinin bu çıxışından 25 gün sonra Ermənistanda Sovet hakimiyyəti qurulmuşdur. Bu, o demək idi ki, Stalin və Rusiya rəhbərliyi də Zəngəzur və Naxçıvanı Ermənistana vermək istəyirdi. Ermənistan bolşeviklərin nəzarətinə keçən kimi Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etmişdir. Hərbi İnqilab Komitəsinin sədri N.Nərimanovun imzası ilə yazılan bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və “iki sovet respublikası arasında ərazi mübahisələrinin” Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi.

Məlum bəyanatdan sonra Naxçıvan bölgəsində daxili vəziyyət xeyli mürəkkəbləşmiş, mübahisə və münaqişələr səngiməkdənsə xeyli kəskinləşmişdi. Naxçıvan məsələsi Rusiya-Ermənistan və Türkiyə-Ermənistan danışıqlarında mühüm yer tuturdu. Ermənistan Rusiya və Türkiyə arasında siyasi manevrlər edərək onların münasibətlərindən və yaranmış şəraitdən istifadə etməyə çalışırdı. Rusiyaya gəldikdə isə o, Türkiyə ilə yaxınlaşmaq xəttini yeritsə də, erməniləri də müdafiə etdiyini gizlətmirdi. Ermənistan isə Naxçıvan və başqa ərazilərlə bağlı niyyətlərini həyata keçirmək üçün ən çox Rusiyaya ümid bəsləyirdi. Ermənistan 1920-ci il dekabrın 2-də həm Rusiya, həm də Türkiyə ilə müqavilə bağladı. RSFSR ilə Sovet Ermənistanı arasında bağlanan hərbi-siyasi sazişə görə, keçmiş İrəvan quberniyasının Ermənistanın tərkibinə daxil olmasının sovet hökuməti tərəfindən mübahisəsiz tanınması qəbul edilirdi. Türkiyə ilə Ermənistan arasında bağlanan Gümrü (Aleksandropol) müqaviləsi Rusiya və onun təhriki ilə Ermənistan tərəfindən qəbul edilmədi. Lakin bununla belə, bu müqaviləyə görə, Naxçıvan bölgəsinin düşmən əlinə keçməməsi üçün “həmin ərazidə hələlik Türkiyənin himayəsində yerli hökumət yaradılması” qərara alınmışdı. Gümrü müqaviləsinin 2-ci maddəsində tərəflər Naxçıvan bölgəsi ilə bağlı razılığa gəlmişdilər ki, Ermənistan Kükü dağı, Həməsur dağı, Qurdqulaq kəndi, Saat dağı, Arpaçay evləri, Qəmərli dağı, Saray-Bulaq dağları, Ararat stansiyası, Araz çayı yaxınlığındakı Aşağı Qarasunun töküldüyü yerdən zolağın cənubundakı (Naxçıvan, Şahtaxtı, Şərur) əraziyə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi torpaqlara qarışmayacaq, indiki ərazidə, hələlik, Türkiyənin himayəsində yerli idarə yaradılacaqdır. Müqavilənin 12-ci maddəsinə əsasən, Türkiyə hökuməti Şərur, Naxçıvan, Şahtaxtı və Culfa yolu ilə tranzit işlərinin sərbəstliyinin təminatını öz üzərinə götürmüşdür.

1920-ci il dekabrın 28-də Ermənistan SSR Hərbi İnqilab Komitəsi bəyanat ilə çıxış edərək Naxçıvan əhalisinə öz müqəddəratını azad surətdə təyin etmək hüququ verildiyini bildirmişdir. Lakin 1921-ci ilin əvvəllərindən başlayaraq heç bir bəyanat verməmiş kimi yenə də Naxçıvana qarşı haqsız ərazi iddiaları irəli sürmüşdür.

1920-ci ildə Türkiyə xalqı müstəqillik uğrunda mübarizə aparırdı. Türkiyənin inqilabi hökuməti sovet Rusiyası ilə dostluq əlaqələri yaratmışdı. 1920-ci il aprelin 26-da Türkiyə Böyük Millət Məclisi yardım üçün V.İ.Leninə müraciət etmişdir. Həmin ilin yayından başlayaraq Türkiyə hökuməti Rusiya ilə diplomatik münasibətlər qurmaq və iki ölkə arasında dostluq müqaviləsi imzalamaq üçün fəallığını artırmış və bunun üçün Bəkir Sami bəyin başçılığı ilə nümayəndə heyəti Moskvaya göndərilmişdir. Danışıqlar nəticəsində sovet-türk müqaviləsinin layihəsi hazırlanmışdır. Gələcəkdə Rusiya-Türkiyə danışıqlarının Bakıda keçirilməsi razılaşdırılmışdır. Lakin bir qədər sonra G.Çiçerin konfransın Moskvada keçiriləcəyini və burada Azərbaycan və Ermənistan nümayəndələrinin də iştirak edəcəyini bildirmişdir. Əslində, bununla G.Çiçerin konfransa Azərbaycanı və Ermənistanı qatmaqla həm bu dövlətlərin xarici siyasətini öz əlində cəmləşdirmək və Türkiyəyə qarşı qoymaq, həm də gələcəkdə Güney Qafqazdakı niyyətlərini həyata keçirmək üçün zəmin hazırlamaq istəyirdi.

Türkiyə bu təkliflə razılaşmadı. Onlar Azərbaycan, Gürcüstan və Ermənistanla müqavilə bağlamaq istəyirdi. Üstəlik, Türkiyə bildirirdi ki, onların Azərbaycanla heç bir mübahisəli məsələsi yoxdur. Ermənistana gəldikdə isə Türkiyə Gümrü (Aleksandropol) müqaviləsini qüvvədə hesab edir və ondan imtina etmək istəmirdi.

Azərbaycan da Rusiya tərəfindən olan təklifləri qəbul etmək istəmirdi. Bununla əlaqədar Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli nümayəndəsi Behbud ağa Şahtaxtinski M.Hüseynova yazırdı: “...Mən şəxsən konfransda Azərbaycanın iştirakının əleyhinəyəm. Çünki mən orada heç nə haqqında qətiyyətli danışa bilmərəm... Məni Anadoluda çoxlu kombinasiyalar gözləyir və Azərbaycana heç bir aidiyyəti olmayan məsələlər barədə türklərə qarşı konfransda çıxış etsəm, bütün bunların hamısını itirə bilərəm. Rusiya türklərlə danışıqları dostluq və qardaşlıq haqqında aparır, ittifaq haqqında aparmır”.

1921-ci ilin fevral ayında Ankara hökumətinin yeni xarici işlər naziri Yusif Kamal bəyin başçılığı ilə Əli Fuad və doktor Rza Nurdan ibarət diplomatik nümayəndə heyəti Moskvaya gedərək yeni danışıqlara başlamışdır. Danışıqlarda Rusiya tərəfindən G.Çiçerin və C.Qorxmazov iştirak edirdi. Müzakirələr çox gərgin keçmiş və hətta danışıqlar bəzən pozulmaq həddinə çatmışdır.

Moskva danışıqlarında Azərbaycanın təmsilçisi B.Şahtaxtinski də iştirak etmiş və uğurlu nəticənin əldə edilməsində onun mühüm xidməti olmuşdur. Belə ki, o, 1921-ci il martın 1-də V.İ.Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. Lenin bunlarla tanış olduqdan sonra onu Siyasi Büroya göndərmişdi. B.Şahtaxtinskinin məktubuna martın 16-da Stalinin, Çiçerinin və başqalarının iştirakı ilə baxılmış və onun təklifləri nəzərə alınmaqla Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasının təşkili barədə qərar qəbul olunmuşdu.

Bir aya yaxın davam etmiş danışıqların yekunu 1921-ci il martın 16-da imzalanmış “Dostluq və qardaşlıq haqqında” RSFSR-Türkiyə müqaviləsində öz əksini tapmışdır. “Moskva müqaviləsi” adlanan bu beynəlxalq sənəd 16 maddədən və 2 əlavədən ibarətdir.

Müqavilə ilə tərəflər onlara zorla qəbul etdirilən ikitərəfli və beynəlxalq müqaviləni rədd edirdilər. Türkiyə hökuməti tərəfindən qəbul edilməyən müqaviləni Rusiya hökuməti də rədd edirdi. Türkiyə Batum şəhərinə və limanına suverenlik verilməsinə razı olurdu. Bu şərtlə, ona qanuni idarəçilik, geniş muxtariyyət, vətəndaş hüququnun qorunması haqqı verilməli idi. Tərəflər Qara dənizin beynəlxalq statusu ilə bağlı razılığa gəlirdilər. Bu, Türkiyənin suverenliyinə, təhlükəsizliyinə, o cümlədən İstanbulun təhlükəsizliyinə xələl gətirməməli idi. Rusiya işğal rejiminin hər hansı ölkənin azad milli inkişafı ilə bir araya sığmadığını göstərirdi. Tərəflər bir-birlərinin ərazilərində hakimiyyətə gəlmək istəyən qrupların fəaliyyətinə yol verməməlidirlər. Bir ölkədən çıxıb digərində yaşayanlar yaşadıqları ölkənin qanunlarına tabe olmalı idilər. 1918-ci ilədək Rusiyaya məxsus olan ərazilərdə yaşayan vətəndaş öz əmlakı ilə köçüb Rusiyaya gedə bilərdi. Tərəflər 3-6 ay müddətində hərbi əsirləri və həbs olunmuş rus və türk vətəndaşlarını geri qaytarmalı idi. Tərəflər konsulluq münasibətləri qurmalı, iqtisadi və maliyyə məsələlərinə dair saziş imzalamalı idilər. Onlar Qafqaz respublikaları qarşısında öhdəlik götürürdülər.

Moskva müqaviləsinin üçüncü maddəsi və I (B) əlavəsi bilavasitə Naxçıvanla bağlı idi. Müqavilənin 3-cü maddəsinə əsasən, belə bir qarşılıqlı qərar qəbul edildi ki, Naxçıvan vilayəti bu müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir. “Naxçıvan ərazisi” adlı I (B) əlavəsində isə bölgənin sərhədləri müəyyənləşdirilmişdir: Ararat stansiyası-Saray-Bulaq dağları-Kömürlüdağ-Sayatdağ-Qurdqulaq kəndi-Həməsur dağı-yüksəklik (8022)-Küküdağ və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi.

Beləliklə, Rusiya hökumətinin ermənipərəst mövqeyinə və erməni kommunist riyakar siyasətinə baxmayaraq, Naxçıvan əhalisinin qətiyyətli, dönməz iradəsi, Türkiyənin prinsipial mövqeyi və Behbud ağa Şahtaxtinski kimi milli mənafelərdən çıxış edən siyasi xadimlərin səyləri ilə Naxçıvan Azərbaycanın tərkibində saxlanılmışdır. V.İ.Lenin Türkiyə ilə sülh sazişindən danışarkən demişdi ki, “bu, bizi Qafqazdakı daimi müharibələrdən xilas edir”. Lakin bu sözlər özünü doğrultmadı. N.Nərimanov qeyd etmişdir ki, “Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən, Naxçıvan Azərbaycanın protektoratlığı altında müstəqil respublika elan olunur. Orda bizim nümayəndəmiz olacaqdır və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik”. Yusif Kamal bəy isə yazmışdır ki, “Naxçıvan müsəlmanları bir daha soyqırıma məruz qalacağı halda türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirilmişdir”.

Moskva müqaviləsinin imzalanmasının böyük tarixi əhəmiyyəti vardır. İlk növbədə, bu müqavilə Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri həll etdi. Rusiya və Türkiyə sıx ittifaqda birləşdi, təbii müttəfiqə çevrildilər. Moskva müqaviləsi Azərbaycanın bütövlüyünü qorudu və Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirdi. Bu müqaviləyə görə, qədim türk-oğuz yurdu olan Naxçıvan Azərbaycan sərhədləri içərisində qaldı.

Naxçıvan Muxtar Respublikasına erməni iddialarının artdığı indiki zamanda Moskva beynəlxalq müqaviləsinin əhəmiyyəti daha aydın şəkildə nəzərə çarpır və bu müqavilə Naxçıvanın muxtariyyətinin qorunmasında əvəzsiz rol oynayır. Təsadüfi deyil ki, ümummilli liderimiz Heydər Əliyev 1992-ci ilin mart ayında Türkiyə Cümhuriyyətinə səfəri zamanı Moskva və Qars müqavilələrini müzakirə mövzusuna çevirmiş və bu müqavilələrin xalqımızın həyatındakı tarixi rolunu yüksək qiymətləndirmişdir.

***Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsinin 90 ili tamam olur. Bu, beynəlxalq Moskva və Qars müqavilələri ilə rəsmiləşdirilmişdir. Özü də müddətsiz dövr üçün. Bu müqavilənin müddətsiz bağlanması onun tarixi əhəmiyyətini daha da artırmış olur. Dövlətlərarası münasibətlər baxımından bu növ müqavilələr daimilik xarakterinə malikdir. Mübaliğəsiz demək olar ki, ifrat erməni millətçilərinin Moskva müqaviləsini qüvvədən salmaq üçün dəfələrlə müxtəlif hiylələrə əl atmalarına baxmayaraq, bu tarixi sənəd özünün həyat vəsiqəsini daşıyır və Naxçıvanın təhlükəsizliyini qoruyur.***

**İsmayıl Hacıyev**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# Məktəbli formaları standartlara uyğun olmalıdır

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində keçirilən seminar 12 sentyabr 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində elm və təhsil müəssisələrində qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə komitə qarşısında qoyulan vəzifələrin yerinə yetirilmə vəziyyətinə həsr olunmuşdu. Seminarı komitə sədrinin müavini Vüqar Muxtarov açaraq bildirmişdir ki, verilmiş tapşırıqlar komitənin aidiyyəti strukturları tərəfindən icra üçün rəhbərliyə alınaraq 2013-2014-cü tədris ili ərzində konkret tədbirlər həyata keçirilir.

Bildirilmişdir ki, ticarət şəbəkələrində və müəssisələrdə aparılan müşahidə xarakterli monitorinqlər zamanı istifadə olunan köməkçi materialların keyfiyyətini və təhlükəsizliyini təsdiq edən sınaq protokolları və uyğunluq sertifikatı olmadığından məktəbli oğlanlar üçün 37 ədəd pencək, 7 ədəd şalvar, məktəbli qızlar üçün 10 ədəd ətəklik, tələbə oğlanlar üçün 106 ədəd pencək, 15 ədəd şalvar, 45 ədəd qalstukun satışına qadağa qoyulmuş, məktəbli formalarından götürülmüş 4 parça nümunəsinin sınaqları aparılmış, 1 parça nümunəsinin sınaqları zamanı tərkibinə görə sintetikliyi standartın tələblərinə uyğun olmadığından istifadəsinə icazə verilməmişdir.

Seminarda komitə əməkdaşlarının müxtəlif mövzularda çıxışları dinlənilmiş və suallar cavablandırılmışdır.

**Xəbərlər şöbəsi**

*Abbasqulu ağa Bakıxanov Azərbaycan tarixinin ən keşməkeşli dövrlərindən birində yaşamışdır. Onu Azərbaycanın XIX əsrdə dünyaya bəxş etdiyi ən görkəmli şəxsiyyətlərdən biri kimi xarakterizə etmək mümkündür. Tarixçi kimi fəaliyyətinə görə bu şəxsiyyəti "Azərbaycan tarix elminin atası" da adlandırırlar. Başqa sözlə desək, Herodot dünya tarixi üçün hansı mövqedə dayanırsa, Abbasqulu ağa Bakıxanov Azərbaycan tarixi üçün həmin mövqedə dayanır. Herodotun "Tarix" əsəri dünya tarixi üçün nə qədər əhəmiyyətlidirsə, Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsəri Azərbaycan tarixi üçün o qədər əhəmiyyətli bir əsərdir.*



*Abbasqulu ağa Bakıxanov – 220*

## Abbasqulu ağa Bakıxanovun fəaliyyəti və yaradıcılığında Naxçıvan

Azərbaycan maarifçiliyinin ilk üç nümayəndəsindən biri hesab edilən Abbasqulu ağa Bakıxanovun "Qanuni-Qüdsi", "Əsrarül-mələküt", "Təhzibül-əxlaq", "Eynül-mizan" kimi əsərləri onun dil, coğrafiya, astronomiya, məntiq, psixologiya və sair elmləri gözəl bilən ensiklopedik bir mütəfəkkir olduğunu göstərməkdədir. Bütün bunlarla yanaşı, Abbasqulu ağa Bakıxanov həm də görkəmli diplomat və tərcüməçi olmuşdur. O, dövrün reallıqlarını və tarixi proseslərin gedişatını əsl diplomat bacarığı ilə qiymətləndirməyi bacarmış, öz dünyagörüşünə uyğun olaraq, ölkəsini inkişafa aparacaq doğru bildiyi yolla hərəkət etmiş, Azərbaycan tarixinin ən taleyüklü məqamlarında mümkün imkanlardan istifadə edərək Vətəninin mənafeyinə xidmət etməyə çalışmışdır.

Bütün bunları göz önünə gətirdikdə bu il fevral ayının 12-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan "Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı Azərbaycan ictimai-mədəni fikir tarixinin görkəmli nümayəndəsi, böyük maarifçi, tanınmış alim və şair Abbasqulu ağa Bakıxanovun tarixi fəaliyyətinə verilən böyük qiymət hesab etmək olar. Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Tədbirlər Planının təsdiq edilməsi ümumazərbaycanmiqyaslı bu şəxsiyyətin fəaliyyətində Naxçıvan mövzusunun öyrənilməsini vacib vəzifələrdən biri kimi qarşımıza qoyur. Qeyd edək ki, təsdiq edilmiş Tədbirlər Planında bu ilin iyun ayında Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyi ilə bağlı elmi konfransın keçirilməsi, muxtar respublikanın mədəniyyət müəssisələrində sərgilərin yaradılması, oxucu konfranslarının təşkili və digər tədbirlər nəzərdə tutulmuşdur.

Abbasqulu ağa Bakıxanovun həm diplomatik, həm də tarixçilik fəaliyyətində Naxçıvan mövzusu xüsusi yer tutur. 1819-cu il dekabr ayının 20-dən etibarən general Yermolovun dəvəti ilə Tiflisə gəlib Qafqaz Baş Hərbi İdarəsində Şərq dilləri tərcümanı vəzifəsində fəaliyyətə başlamış Abbasqulu ağa Bakıxanov düz 26 il bu vəzifədə çalışmışdır. O, 1820-ci il sentyabr ayının 4-də praporşik, 1826-cı il iyul ayının 20-də poruçik, 1827-ci il oktyabr ayının 14-də ştabs-kapitan, 1828-ci il avqust ayının 7-də kapitan, 1829-cu il aprel ayının 21-də mayor, 1832-ci il mart ayının 9-da podpolkovnik rütbələrinə yüksəlmişdir. Hərbi diplomatik fəaliyyətə başladıqdan sonra onun üzərinə qoyulan ən mühüm vəzifələrdən biri 1813-cü ildə bağlanmış Gülüstan müqaviləsinin mübahisəli sərhəd məsələlərinin həlli olmuşdur. 1826-1828-ci illərdə Naxçıvan və İrəvan xanlıqları uğrunda İran və Rusiya arasında gedən müharibədə Abbasqulu ağa Bakıxanov fəal mövqeyə malik olmuş, Naxçıvan ətrafında rusların iranlılara qarşı apardığı döyüşlərin hamısında iştirak etmişdir. Bakıxanov ştabs-kapitan rütbəsini də məhz Naxçıvandakı Abbasabad qalasının tutulmasında göstərdiyi xidmətlərə görə almışdır. Qeyd edək ki, Naxçıvan şəhərinin 6 kilometr cənub-şərqində, Araz çayı sahilində yerləşən hərbi istehkamtipli Abbasabad qalası fransız hərbi mütəxəssislərinin layihəsi əsasında 1809-1810-cu illərdə tikilmiş və o dövrün ən möhkəm qalalarından biri hesab olunmuşdur. "Naxçıvan Abidələri Ensiklopediyası"nda qeyd olunur ki, qala İran mövqelərinin rus ordusunun hücumlarından qorunması üçün mühüm məntəqə hesab edilirdi.

Bəzi müəlliflər ehtimal edirlər ki, Abbasqulu ağa Bakıxanov Abbasabad qalasının mühafizi olmuş Ehsan xan Kəngərli ilə rusların apardığı diplomatik danışıqlarda iştirak etmişdir. Bu barədə Bakıxanovlar nəslinin digər bir nümayəndəsi Gültəkin Bakıxanova 1984-cü ildə rus dilində çapdan çıxmış "Qüdsi haqqında etüdlər" adlı əsərində də məlumat vermişdir.

Ənvər Əhmədov 1989-cu ildə rus dilində çapdan çıxan "Abbasqulu ağa Bakıxanov dövrü, həyatı, fəaliyyəti" adlı kitabında onun diplomatik istedadına rus generalı Paskeviç tərəfindən verilən qiyməti generalın sözləri ilə ifadə etmişdir. "Persiya müharibəsində mən onun hərbi fəaliyyətinə xüsusilə güvənirəm". Daha sonra rus generalı mərkəzin diqqətinə xüsusi olaraq çatdırırdı ki, Abbasqulu ağanın diplomatik bacarığı, fars dilinə və proseslərə dərindən bələd olması nəticəsində Persiya ilə bütün siyasi danışıqlar onun vasitəçiliyi ilə aparılmışdır.

Naxçıvan Muxtar Respublikasının rəsmi internet portalında verilən belə bir məlumat da diqqət çəkir: "Bakıxanov və A.S.Qriboyedov İrana gedərkən Ehsan xan Kəngərlinin Xan dikindəki sarayında qonaq olmuşlar. A.S.Qriboyedov "İrəvan yürüşü" yol qeydlərində bu barədə bəhs etmişdir". Tarixçi-alim Musa Quliyevin yazdığına görə isə Abbasqulu ağa Bakıxanov 1828-ci ildə 4 aydan çox Naxçıvanda qalmış və hətta Qarabağlar kəndindən həyat yoldaşı Səkinə xanıma rus dilində məktub da yazmışdır. Tədqiqatçı qeyd edir ki, həmin məktublar sonralar tərcümə edilərək "Azərbaycan" jurnalında çap edilmişdir.

Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsəri, bütövlükdə, Qafqaz tarixi üçün olduğu kimi, Naxçıvan tarixi üçün də ən dəyərli mənbələrdən biridir. Beş fəsildən ibarət olan əsərdə o, Naxçıvanın tarixi ilə bağlı məsələlərə də toxunmuşdur. Naxçıvan, Cülah (Culfa), Naxçıvan duzlağı, Alıncaq (Əlincə) qalası, Şərur, Ordubad haqqında müxtəlif tarixi hadisələrlə bağlı bəhs edən Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərində bizə görə Naxçıvan tarixi-coğrafiyası üçün və ümumilikdə, mənfur qonşularımıza cavab vermək üçün ən dəyərli fikir aşağıdakıdır: *"Nadir dövrünün axırlarında qaçıb Şəki və Şirvan ölkələrində keçinən Pənah bəy İbrahim Xəlil oğlu Cavanşir ardıcıl davam edən müharibələr nəticəsində xanlıq ləqəbilə Qarabağda hökmranlıq bayrağını yüksəltdi. Əvvəlcə Bayat və daha sonra Tərnaut qalasını bina etdi. ...Xudafərin körpüsündən başlayaraq Kürək çayına və Bərgüşat mahalına qədər yerləri ələ keçirdi.*

*Bundan əlavə, Qaradağa aid Mığrı və Güney mahallarını, Naxçıvana aid Tatif və Sisyanı, İrəvana aid Tərtər Kolanını və Təbrizə aid olan Zəngəzur və Qapanı tutdu. O, bəzən Ərdəbil və sair kimi qonşu ölkələri də özünə tabe edirdi".*

Əsərdən olduğu kimi çəkdiyimiz bu sitatdan da göründüyü kimi, o zaman Tatif və Sisyan əraziləri Naxçıvanın tərkib hissəsi – ulu türk torpağı olmuşdur.

**Naxçıvanın və ümumilikdə, Azərbaycanın tarixi üçün onlarla belə əhəmiyyətli faktları sadalayan Abbasqulu ağa Bakıxanovun həyatı, yaradıcılığı, əsərləri dərindən öyrənilməli, təbliğ olunmalı və öyrədilməlidir. Bunu bizə müstəqil dövlətçiliyimizin keçdiyi 23 illik tarixi inkişaf yolu diktə edir. Bizi buna Azərbaycan dövlətçiliyinin keşiyində olduğu kimi, Azərbaycanın və Naxçıvanımızın tarixinin keşiyində də ləyaqətlə duran ali iradə təşviq edir. Tariximizi dərindən öyrənməyi, bilməyi və bu tarixi qoruyanların özünü qorumağı isə bizim hər birimizin vətəndaşlıq vicdanımız bizdən tələb etməlidir.**

**Elnur KƏLBİZADƏ**

## Görkəmli bəstəkar Süleyman Ələsgərovun 90 illik yubileyi qeyd olunmuşdur

*Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında görkəmli bəstəkar Süleyman Ələsgərovun 90 illik yubileyi münasibətilə tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov açaraq qeyd etmişdir ki, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, Xalq artisti, dirijor, görkəmli pedaqoq, professor Süleyman Ələsgərovun 90 illik yubileyi ölkəmizdə geniş qeyd olunur.*





Bildirilmişdir ki, o, Azərbaycan musiqi mədəniyyətinə bir-birindən dəyərli bənzərsiz mahnılar, romanslar, kantatalar, opera və operettalar, pyeslər, sonatalar, kvartetlər, vokal-simfonik əsərlər bəxş etmişdir.

Bəstəkarın yaradıcılıq diapazonunun çox geniş olduğunu vurğulayan nazir qeyd etmişdir ki, o, yüzdən çox mahnı bəstələmişdir. Bu mahnılarda Vətənimizin fədakar insanlarının əməyi, gözəl guşələri tərənnüm olunur. Onun Şıxəli Qurbanovun sözlərinə bəstələnmiş və Sosialist Əməyi Qəhrəmanı Bahar Talıbovaya həsr olunmuş "Bahar", "Göygöl", "Şuşa", "Mingəçevir" və başqa çoxsaylı mahnıları dəyərli musiqi əsərləridir.

Qeyd olunmuşdur ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Süleyman Ələsgərovun yaradıcılığını yüksək qiymətləndirmiş, dahi rəhbərin sərəncamı ilə o, "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi, bəstəkar Yaşar Xəlilov çıxış edərək görkəmli sənətkarın həyat və yaradıcılığından geniş söhbət açmışdır. Bildirilmişdir ki, Süleyman Ələsgərov 22 fevral 1924-cü ildə Qarabağın dilbər guşəsi Şuşada anadan olmuşdur. Azərbaycan Dövlət Konservatoriyasını bitirən S.Ələsgərov Üzeyir Hacıbəylinin qayğısı ilə böyük sənət dünyasında ilk uğurlu addımlarını atmış, ilk musiqi əsərlərini bəstələmişdir.

Vurğulanmışdır ki, onun "Yada düşdü", "Vətənimdir", "Sərvi Xuramanım mənim", "Qafqaz", "Ata", "Küsmərəm", "Bilmirəm", "Neylərəm" romansları forma əlvanlığına, ifadə vasitələrinə görə böyük maraq doğurur. Süleyman Ələsgərov Azərbaycan professional musiqisində sözsüz mahnı janrının əsasını qoyan və bu janrı zənginləşdirən yeganə bəstəkardır. O, 21 belə mahnının müəllifidir.

Bəstəkar Azərbaycanda operetta janrının inkişafı ilə bağlı çox məhsuldar fəaliyyət göstərmiş, Ü.Hacıbəylinin ənənələrini davam etdirmişdir. Bəstəkarın müxtəlif illərdə yaratdığı "Ulduz", "Özümüz bilərik", "Olmadı elə, oldu belə", "Milyonçunun dilənçi oğlu", "Sevindik qız axtarır", "Hardasan, ay subaylıq?", "Həmişəxanım", "Gurultulu məhəbbət", "Hərənin öz ulduzu", "Subaylarınızdan görəsiz" operettaları uğurlu yaradıcılıq axtarışlarının nəticəsidir.

Naxçıvan Dövlət Filarmoniyasının direktoru, Azərbaycan Respublikasının əməkdar artisti Elman Əliyev çıxışında bəstəkarın instrumental musiqi yaradıcılığından söhbət açmışdır.

Naxçıvan Musiqi Kollecinin müəllimi Samirə Hüseynova bəstəkarın yaradıcılığının vətənpərvərlik motivlərindən danışaraq qeyd etmişdir ki, onun "Qaytağı", "Cəngi", eləcə də simfonik orkestr üçün bəstələdiyi "Süita"sı hərbi-vətənpərvərlik tərbiyəsi baxımından böyük əhəmiyyət kəsb edir. S.Ələsgərovun "Naməlum əsgər haqqında ballada"sında, "Yürüş marşı", "Birliyə çağırış" əsərlərində vətənpərvərlik tərənnüm olunur.

Çıxışlardan sonra görkəmli bəstəkarın əsərlərinin səsləndirildiyi konsert proqramı olmuşdur. Konsertdə Naxçıvan Dövlət Filarmoniyası Xalq Çalğı Alətləri Orkestrinin ifasında bəstəkarın "Rəqs-tokkata"sı səsləndirilmişdir.

Bəstəkarın Məhəmməd Füzulinin sözlərinə bəstələdiyi "Vətənimdir" romansı (ifaçı Şəhriyar Cəbiyev), Şıxəli Qurbanovun sözlərinə bəstələdiyi "Bahar" mahnısı (ifaçı Yaşar Qurbanov), İmadəddin Nəsiminin sözlərinə bəstələdiyi "Neylərəm" (ifaçı Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Azər Cəfərli), Mikayıl Müşfiqin sözlərinə bəstələdiyi "Küsmərəm" (ifaçı Qəribə Həsənova) romansları alqışlarla qarşılanmışdır.

Konsert proqramında həmçinin bəstəkarın "Rapsodiya" əsəri qanunda, "Xəyala dalarkən" əsəri balabanda, "Tarantello" əsəri kamançada, "Daimi hərəkət" əsəri tarda ifa olunmuşdur.

Sonda görkəmli bəstəkarın şair Rəfiq Zəkanın sözlərinə bəstələdiyi "Azərbaycan" kantatası səsləndirilmişdir.

**Əli RZAYEV**

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə dünən Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində brayl əlifbası ilə nəşr edilmiş "Könül işığı" adlı yeni jurnalın təqdimat mərasimi keçirilib.*

## "Könül işığı" adlı brayl jurnalının təqdimat mərasimi keçirilib

Təqdimat mərasimində Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək qeyd edib ki, muxtar respublikamızda məhdud fiziki imkanlı şəxslərə hərtərəfli dövlət qayğısı göstərilir, onların sosial müdafiəsi, reabilitasiyası və cəmiyyətə inteqrasiyası istiqamətində davamlı tədbirlər həyata keçirilir. Bu kateqoriyadan olan şəxslərin təhsilə cəlb edilməsi dövlətimizin daim diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" bu kateqoriyadan olan uşaqlara göstərilən yüksək dövlət qayğısının bariz ifadəsidir.

Son illər muxtar respublikamızda məhdud fiziki imkanlı şəxslərə, o cümlədən görmə qabiliyyəti məhdud insanlara göstərilən xidmətlər günü-gündən genişlənir və təkmilləşir. Belə ki, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində müvafiq kateqoriyadan olan şəxslərə, o cümlədən görmə qabiliyyəti məhdud insanlara informasiya texnologiyaları tədris edilir, bu sahədə onlara bilik və bacarıqlar aşılanır, onların istedadlarının aşkara çıxarılması məqsədilə yaradıcılıq müsabiqələri, bilik yarışları keçirilir. Hazırda mərkəzdə görmə qabiliyyəti məhdud şəxslər üçün brayl kitabxana, həmçinin telefon vasitəsilə audiokitabxana xidməti göstərilir, brayl əlifbasının tədrisi üzrə kurslar təşkil edilir.

Bildirilmişdir ki, jurnalın nəşri də həmin şəxslərə göstərilən diqqət və qayğının davamıdır.

"Könül işığı" jurnalının audio versiyasının hazırlanıb audiokitabxana xidmətinin kataloquna daxil edilməsi görmə qabiliyyəti məhdud digər şəxslərin də bu imkandan istifadə etmələrinə şərait yaradır.

Məlumat üçün qeyd edək ki, "Şərq qapısı" qəzetində dərc olunmuş müvafiq materiallar əsasında hazırlanan və ölkəmizdə ilk dəfə olaraq işıq üzü görən bu jurnal bundan sonra ayda bir dəfə oxucuların görüşünə gələcək və onlara pulsuz çatdırılacaq.

Həmin gün mərkəzdə audiokitabxana xidmətinin fəal istifadəçilərindən olan görmə qabiliyyəti məhdud 10 şəxsə hədiyyələr təqdim edilib.

Tədbir iştirakçıları onlara göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

15 mart Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günüdür

# Muxtar respublikada istehlakçı hüquqlarının müdafiəsi qarşıda duran mühüm vəzifələrdəndir

*Müasir dünyada istehlakçı hüquqlarının qorunması mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. 1962-ci il martın 15-də Amerika Birləşmiş Ştatlarında "İstehlakçıların hüquqlarının müdafiəsinə dair Bəyanat" qəbul edilmişdir. Həmin tarixdən etibarən hər il martın 15-i dünyada "Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günü" kimi qeyd olunur.*

İstehlakçı hüquqlarının qorunması sahəsində həyata keçirilən tədbirlər sonrakı dövrlərdə də dünya ictimaiyyətinin diqqət mərkəzində olmuş, istehlakçıların seçim etməsi, təhlükəsizliyi, məlumat almaq və eşidilmək hüququ konkret sənədlərlə tənzimlənmişdir. 1975-ci ildə Avropa Birliyi tərəfindən "İstehlakçıların hüquqlarının tanınması" haqqında regional sənəd qəbul edilmişdir. Sənəddə istehlakçıların sağlamlığının və təhlükəsizliyinin qorunması, iqtisadi maraqlarının müdafiəsi, istehlakçıya dəyən zərərin ödənilməsi kimi vəzifələr öz əksini tapmışdır.

Azərbaycanda istehlakçı hüquqlarının müdafiəsi sahəsində dövlət siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndərin təşəbbüsü ilə 1995-ci il sentyabrın 19-da "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunun qəbulundan sonra ölkəmizdə istehsalçı və istehlakçı münasibətləri dünya təcrübəsinə uyğunlaşdırılmış, bu sahədə mühüm tədbirlər həyata keçirilmişdir. Nəticədə, Azərbaycanda istehlakçılar üçün bərabər şərait yaradılmış, alğı-satqı prosesində, iş görülməsində və xidmət göstərilməsində istehlakçı və istehsalçı arasında münasibətləri tənzimləyən və istehlakçıların hüquqlarını müdafiə edən vahid mexanizm yaradılmışdır.

Bu gün istehlakçı hüquqlarının qorunması, onların istifadə etdikləri məhsulun keyfiyyəti, çeşidi, standartlaşdırılması, sertifikatlaşdırılması kimi məsələlər Azərbaycan Respublikasının digər qanunvericilik aktlarında da geniş təsbit olunmuşdur. Hazırda ölkəmizdə istehlakçıların aldıqları malların keyfiyyətinə və təhlükəsizliyinə zəmanət almaq, onların çeşidi və keyfiyyəti haqqında dolğun məlumat əldə etmək hüquqlarının təsbit edildiyi təkmil qanunvericilik bazası formalaşdırılmışdır. Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrində insanların istehlakçı kimi tələbatlarının ödənilməsi üçün hüquqi əsas yaradılır. Həmçinin Azərbaycan Respublikasının "Antiinhisar fəaliyyəti haqqında", "Yeyinti məhsulları haqqında", "Haqsız rəqabət haqqında", "Standartlaşdırma haqqında", "Taxıl haqqında", "Reklam haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" qanunları da istehlakçı hüquqlarının müdafiəsini təmin edir.

Naxçıvan Muxtar Respublikasında da adıçəkilən qanunların aidiyyəti orqanlar tərəfindən icrası daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bilavasitə diqqət və qayğısı sayəsində həyata keçirilən tədbirlər istehlakçıların hüquqlarının qorunmasına, əhalinin tələbatının daha keyfiyyətli məhsullarla ödənilməsinə hərtərəfli şərait yaratmışdır.

"2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda nəzərdə tutulan vəzifələrin icrası iqtisadi inkişafı təmin etməklə yanaşı, həm də əhalinin keyfiyyətli ərzaq məhsullarına olan tələbatının ödənilməsinə və istehlakçı hüquqlarının müdafiəsinə hesablanmışdır. Yerli istehsalın inkişaf strategiyasına uyğun olaraq, bu gün muxtar respublikada 115 növdə, 459 çeşiddə ərzaq, 231 növdə, 529 çeşiddə qeyri-ərzaq məhsulları istehsal olunur. 106-sı ərzaq və 226-sı qeyri-ərzaq olmaqla, 332 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir.

Muxtar respublikada istehsal, ticarət, ictimai-iaşə və xidmət sahələrində görülən işlərin, göstərilən xidmətlərin və istehsal olunan məhsulların normativ-texniki sənədlərin tələblərinə uyğunluğu, insanların həyatına, sağlamlığına, əmlakına zərər vura biləcək məhsulların, işlərin və xidmətlərin qarşısının alınması, istehlak bazarının keyfiyyətsiz mallardan qorunması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Təkcə 2013-cü ildə aidiyyəti dövlət orqanları tərəfindən 256 ticarət, xidmət, iaşə və istehsal müəssisəsində monitorinqlər aparılmışdır. Aparılan monitorinqlər zamanı ümumi dəyəri 19 min manatdan artıq olan keyfiyyətsiz məhsullar aşkar olunaraq ticarət dövriyyəsindən çıxarılmışdır. Bu zaman qanunvericiliyin tələblərini pozduğuna görə 14 sahibkara inzibati tənbeh növü, 1 sahibkara isə maliyyə sanksiyası tətbiq edilmişdir.

Bu gün "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətinin təmin olunması həm də istehlakçıların hüquqlarının qorunması sahəsində həyata keçirilən tədbirlərin miqyasını xeyli genişləndirmişdir. Hazırda muxtar respublikada istehsal və idxal olunan məhsulların fiziki-kimyəvi və mikrobioloji göstəricilərinin yoxlanması nəzarətdə saxlanılır. Davamlı olaraq istehsal və idxal olunan məhsullardan nümunələr götürülərək keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi məqsədilə mərkəzin laboratoriyalarında analiz olunur. Təkcə ötən il 1080 idxal və 2307 yerli istehsal mallarından nümunələr götürülərək "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin laboratoriyasında analiz olunmuş, 5 məhsulun keyfiyyət göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə cavab vermədiyi müəyyən edilmişdir.

İstehlakçı hüquqlarının qorunması həm də daxili bazarda süni qiymət artımının qarşısının alınmasından ibarətdir. Son illər muxtar respublikada süni qiymət artımına səbəb ola biləcək halların qarşısının alınması məqsədilə idxal mallarının topdan və pərakəndə satış qiymətləri nəzarətdə saxlanılır. Həmçinin məhsulların qiymətlərində müşahidə olunan artım səbəbləri araşdırılır, müqayisəli təhlillər aparılır. Mövsümi qiymət artımının qarşısının alınmasında, əhalinin fasiləsiz olaraq keyfiyyətli kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsində soyuducu anbarların və istixana komplekslərinin də rolu böyükdür. Bu məqsədlə muxtar respublikada ümumi tutumu 11 min 770 ton olan 16 soyuducu anbar vardır.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyətinin stimullaşdırılması, əhalinin bu məhsullara olan tələbatının daha dolğun ödənilməsi məqsədilə kənd təsərrüfatı və emal sənayesi məhsullarının satışı yarmarkalarının təşkili də mühüm əhəmiyyətə malikdir. Ötən il kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında 1091,5 ton kənd təsərrüfatı və sənaye məhsullarının satışı həyata keçirilmişdir.

***Bu gün muxtar respublikada istehlakçıların hüquqları aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları tərəfindən etibarlı şəkildə qorunur. Ancaq istehlakçıların hüquqlarının qorunması yalnız dövlətin işi deyil, ümumxalq işidir. Bizim hər birimiz isə bir istehlakçı kimi öz hüquqlarımızı yaxşı bilməli, bu işə öz töhfəmizi verməliyik.***

**Naxçıvan Muxtar Respublikası**
**İqtisadi İnkişaf Nazirliyinin mətbuat xidməti**

# "Portretlər" adlı sərgi

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda həmyerlimiz Eldar Zeynalovun rəsm əsərlərindən ibarət sərgi təşkil edilib.*



Sərginin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək rəssamın həyat yolu, yaradıcılığı haqqında iştirakçılara məlumat verib. Qeyd edilib ki, rəssamın əsərləri Avstraliyada, Yeni Zellandiyada, ABŞ-da, Yaponiyada, Türkiyədə, Pakistanda, İranda və ərəb ölkələrində, Rusiyada, Sloveniyada, Almaniyada, Fransada təşkil edilmiş sərgilərdə nümayiş etdirilib. Rəssam 2011-ci ildə Sloveniyada keçirilən Beynəlxalq Rəsm Müsabiqəsinin qalibi olub. Hazırda Moskva Memarlıq Akademiyasının Şəhərsalma kafedrasının baş müəllimi kimi fəaliyyət göstərir.

Rəssam Eldar Zeynalov çıxışında ona göstərilən diqqətə görə minnətdarlığını bildirib.

Sonra tədbir iştirakçıları sərgidə nümayiş etdirilən əsərlərlə tanış olublar. "Ayasofya İslam", "Anamın portreti", "Avtoportret", "Piran haqqında ballada", "Lalə və Lili", "İstanbuldan xatirə", "Zülfüqar", "Roma əsgərləri ilə avtoportret" əsərləri tamaşaçılarda böyük maraq oyadıb.

Məlumat üçün bildirək ki, "Portretlər" adlı sərgi martın 18-dək davam edəcək.

**Xəbərlər şöbəsi**

*Qarşıdan xalqımızın ən əziz bayramı olan Novruz bayramı gəlir. Novruz bayramı öz adət-ənənələri ilə xalqımızın qədim mədəniyyətini özündə geniş şəkildə əks etdirən, yaşadan bir bayramdır. Hər il olduğu kimi, bu il də muxtar respublikamızın sakinləri xalqımızın qədim el bayramı olan Novruz bayramını böyük sevinc və ruh yüksəkliyi ilə qarşılayır.*

# Novruz bayramı günlərində yanğın təhlükəsizliyi qaydalarına riayət edək

Novruzun gəlişi ərəfəsində hər birimizin arzusudur ki, bütün bayramlar kimi, Novruz şənlikləri də ən ülvi duyğularla yaddaşlara həkk olunsun, bayram yalnız və yalnız xoş hisslərlə xatırlansın. Aparılan təhlillər zamanı aydın olur ki, bayram şənliklərinin və tədbirlərinin keçirilməsi zamanı vətəndaşların adi ehtiyatsızlığı səbəbindən yanğınlar baş verir. Yanğınlar zamanı vətəndaşlarımıza maddi və mənəvi ziyan dəyir.

Novruz bayramı günlərində muxtar respublika ərazisində yanğın təhlükəsizliyinin etibarlı təmin olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirən Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin əməkdaşları tərəfindən bayram tədbirləri və şənliklərinin keçiriləcəyi mədəniyyət müəssisələrində, kütləvi insan toplaşan yerlərdə yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə profilaktik maarifləndirici söhbətlər aparılmışdır.

Aparılan təhlillər zamanı müəyyən olunmuşdur ki, bir çox hallarda vətəndaşlar tərəfindən tonqal yandırılarkən onun yerinin düzgün seçilməməsi və yandırılmış tonqalın nəzarətsiz qalması nəticəsində xoşagəlməz hadisələrlə nəticələnən yanğınlar baş verir. Novruz bayramında vətəndaşlar tərəfindən pərakəndə halda tonqallar yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalı, tonqallar ətrafda olan yanar materiallardan, mühəndis-texniki qurğulardan, qaz xətlərindən, elektrik və rabitə xətləri çəkilmiş dirəklərdən, binalardan, evlərdən, yardımçı tikililərdən, ot-saman tayalarından, tezalışan maye və materiallar saxlanılan yerlərdən kənarda yandırılmalıdır.

Güclü külək zamanı tonqal yandırmaq düzgün deyil. Bayram şənlikləri zamanı tonqallar tam söndürülənədək nəzarətdə saxlanılmalıdır. Unutmaq olmaz ki, zəif bir küləyin əsməsi nəticəsində tam sönməmiş tonqalın közü yanğının baş verməsi üçün mənbə ola bilər. Novruz şənliklərində yanar mayelərlə hopdurulmuş məşəllərin, qığılcım saçanların və fişənglərin azyaşlı uşaqlar tərəfindən istifadə olunmasına yol vermək olmaz. Çünki məşəllər evlərin dam örtüklərinin, həyətyanı sahələrə yığılmış yanar materialların, çəpərlərin və ot-saman tayaları yığılmış yerlərin üzərinə düşə bilər və güclü yanğınların baş verməsinə səbəb olar.

Yüksəkliklərdə, dağ və dağətəyi yerlərdə avtomobil şinlərinin üst-üstə yığılaraq yandırılması yanğın cəhətdən daha təhlükəlidir. Belə hallarda yanan şinlər diyirlənərək ətrafdakı yaşayış sahələrində yanğın ocaqlarının yaranmasına səbəb olar. Novruz şənlikləri və tədbirlərinin keçirildiyi küçə və meydanlarda kütləvi şəkildə toplaşan insanlar xoşagəlməz hadisələrin baş verməməsi üçün, mütləq qaydada, bir-birlərinin təhlükəsizliyini qorumalıdırlar.

Novruz bayramının bir bəzəyi də xonça bəzəmək, şam yandırmaqdır. Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və digər yanar materiallara yapışdırmaq yanğın təhlükəsizliyi cəhətdən yolverilməzdir. Yanar şamın nəzarətsiz qoyulması xoşagəlməz hadisələrin baş verməsi ilə nəticələnə bilər. Bayram tədbirləri zamanı əhali ilə yanaşı, idarə, müəssisə və təşkilat rəhbərləri, xüsusən mədəniyyət və təhsil müəssisələri yanğın təhlükəsizliyi qaydalarına nəzarəti gücləndirməli, tədbir keçiriləcək yerlərdə yanğın təhlükəsizliyinə cavabdeh şəxslər təyin etməli və qabaqlayıcı tədbirlər görməlidirlər.

Novruz şənliklərində xoşagəlməz hadisələrlə üzləşməmək üçün yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etmək, baş verə biləcək yanğın hadisələrinin qarşısının vaxtında alınması üçün diqqətli olmaq lazımdır.

Bayram tədbirləri və şənlikləri keçirilən zaman yanğın hadisələri ilə üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin **"112"** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin **"101"** xidmətinə məlumat verməyi unutmayın.

***Novruz bayramınız mübarək!***

**Mirtaleh SEYİDOV**
**Naxçıvan Muxtar Respublikası**
**Fövqəladə Hallar Nazirliyinin**
**bölmə rəisi, daxili xidmət kapitanı**

# Xalq-uşaq oyunlarından ibarət yarış keçirilib

*Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyası Gənclər və İdman Nazirliyi ilə birgə İlham Əliyev adına Olimpiya-İdman Kompleksində sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların iştirakı ilə xalq-uşaq oyunlarından ibarət yarış keçirib. Yarışın təşkilində əsas məqsəd unudulmaqda olan xalq-uşaq oyunlarının təbliğ edilməsi, uşaqlarda bu oyunlara olan marağı artırmaqla onlar arasında idmanın kütləviliyinə nail olunması və bu kateqoriyadan olan uşaqların cəmiyyətə inteqrasiyalarının təmin edilməsidir.*

Tədbirdə Paralimpiya Federasiyasının, Gənclər və İdman Nazirliyinin nümayəndələri çıxış edərək qeyd ediblər ki, xalqımızın zəngin folklor nümunələrindən biri də xalq-uşaq oyunlarıdır. Çəldlik, çeviklik və bacarıq tələb edən bu yarışda sağlamlıq imkanları məhdud 20 uşaq iştirak edir.

Milli geyimdə olan yarış iştirakçıları hər biri 5 nəfərdən ibarət olan "Göygöl", "Araz", "Əlincə" və "Qalacıq" komandalarında "Çilәmə", "Aradaqalma", "İpüstü", "Torba içində tullanmaq", "Hoppana-hoppana", "Kəndirdartma" və sair oyunlar üzrə qabiliyyətlərini sınayıblar.

Oyun qaydalarını tez və dəqiq yerinə yetirərək daha çox xal toplayan "Göygöl" komandası qalib olub. Qalib komandaya Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının qiymətli hədiyyələri, digər yarış iştirakçılarına isə həvəsləndirici hədiyyələr təqdim edilib.

**Naxçıvan Muxtar Respublikası**
**Əmək və Əhalinin Sosial Müdafiəsi**
**Nazirliyinin mətbuat xidməti**

***İtmişdir***

Qəhrəmanov Abbas Əli oğluna 18 noyabr 1997-ci il tarixdə alğı-satqı müqaviləsi əsasında verilmiş qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi, ev 42^A-da yaşayan Səttarov Əbülfəz Eldar oğlunun adına olan 3401 inventar nömrəli texniki pasport və Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən 25 avqust 2011-ci il tarixdə verilmiş 0022034 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "Çənlibel" məhəlləsi, bina 8, ev 15-də yaşamış Qafarov Talıb Rəhim oğlunun adına olan 6669 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 264